# Hər qönçənin açılmağı var

## Gənc şair, publisist, nasir Amid Səlimoğlunun yaradıcılıq kimliyi



Nə “Kredo” qəzetinin, nə də mənim bu qəzetdə fəaliyyətim dövrü üçün müxtəlif yaradıcılıq tendensiyalı, istedad gücünə görə fərqli müstəvilərdə görünən gənclərlə qarşılaşmağım az olmayıb. Əlbəttə, elə gənclər olub ki, istedadlı olduqlarını elə ilk yazılarındanca hiss etmişəm. Və acısı da budur ki, bir qərinəlik zaman ərzində onu da görmüşəm ki, istedadını duyduğum, hiss etdiyim, gördüyüm gənc ədəbiyyatdan uzaq düşüb. Yazıb-yaratmaq marağı ölüb. Belələri üçün, əlbəttə, ağrı hissi keçirmişəm.

Nə qədər təzadlı olsa da, bunu da deməliyəm; elələri də olub ki, istedadı ilk baxışdan diqqətimi cəlb etməyib. Ancaq zəhməti ilə, inadlı axtarışları, ardıcıl mütaliəsi ilə yaradıcılığın hansısa bir tərəfindən üzə çıxa bilib. Belələrini də ilk dəfə yanlardan olan təhdidlərə baxmayaraq, dərc etdiyim üçün qürur duymuşam. Və hiss etmişəm ki, zəhmətim hədər getməyib.

Həyat davam edir. Ən müxtəlif gücdə, istedadda və ən başlıcası, yetkin bilgidə yazı ilə “Kredo”ya üz tutan müəlliflər də var. Hiss edirəm ki, onların hələ ki, yazı təcrübəsi azdır. Zaman keçdikcə beələləri yazı üslubunu cilalaya bilər. Hətta güclərindən artıq görünsə belə, daha dərin mövzulara cəsarətlə girişməkdədirlər.

Yazıda cəsarət anlamı xüsusi şərtdir. Hətta yazı təcrübəsi az olsa belə, səriştəsi qədərincə bişməmiş olsa belə, cəsarətli müəlliflərin gələcəkdə uğur qazanacağına kimsənin şübhəsi olmamalıdır. Yenə, şübhəsiz, ardıcıl öz üzərində işləmək, oxumaq, tədqiq etmək əsas şərt kimi qarşıda durur. Bunsuz irəliyə doğru bircə addım da mümkün deyil.

Bu günlərdə redaksiyaya müraciət edən gənc müəlliflərdən biri Amid Səlimoğlu haqqında danışmaq istərdim. Onu bizə ünvanlayan Azərbaycanın tanınmış şairi, sözün həqiqi mənasında Azərbaycan dövlətçiliyini bütün yaradıcılığı boyu tərənnüm edən Mövlud Teymurdur. Mövlud bir atalıq böyüklüyü ilə, bir ustadlıq qayğısı ilə Amid Səlimoğlu haqqında danışdı. Onu bizə qədərincə təqdim etmək üçün ən müxtəlif tərzdə izahlar verməyə cəhd göstərdi.

Belə tanıtmalar, yolgöstərmələr çox olur. Sonluğunda uğursuzluqlar da görmüşük. Amma Amid Səlimoğlunu görən kimi onunla ilk söhbətdəncə hiss etdim ki, bu gəncin nüvəsində yaradıcılıq eşqi maqma kimi qaynamaqdadır. Mənə iki kitabını təqdim etdi. “Qaranlıqdan işığa (hər şey yeni başlayır)”, “Kimsəsiz” romanlarını... Açığı, Amidin özünə də demək istədim. Niyə əvvəlcə ilk yaradıcılıq nümunələrini təqdim etmək istəmir. Bəlkə heç yoxdur. Əlbəttə, belə müəlliflər də var. Elə birbaşa roman zirvəsindən ədəbiyyata gəlib... Amma Amidi mənəvi-psixoloji tədqiqatlarıma cəlb etdikcə aydın oldu ki, o buraya qədər, yəni, ən azı “Kimsəsiz” romanına qədər kifayət qədər məhsuldar olub. Yazıb-yaradıb. Publisistik qeydləri, kiçik hekayələri, şeirləri... esseləri ilə düşüncələrində özünü ifadə etməyə çalışıb.

Bəs Amid Səlimoğlu kimdir? Özünün təqdim etdiyi tərcümeyi-halında soyadı “Səlimzadə” kimi qeyd olunub. O, 17.11.1993-cü ildə Bakı şəhərində anadan olub. Kimin harada anadan olmağı, kimin hansı nəslin daşıyıcısı olmağı çox güman ki, müəyyən təsir imkanlarına malikdir şəxsiyyətin formalaşmasında. Əlbəttə, irsiyyət amili var, ictimai mühit məsələsi var, tərbiyə məsələsi xüsusilə təqdirlidir. Bütün hallarda hər hansı bir şəxsi xarakterizə edərkən bu təsir amillərini nəzərə almadan şəxsin, xüsusilə yaradıcı şəxsin yaşam yolunu izləməkdə maraqlıyıq. O əslən özünün yazdığına görə, İsmayıllının Varna kəndindəndir və yaşam yolu qeydlərində mötərizə içinə aldığı belə bir fakt da diqqəti cəlb edir: “Varna kəndi dağıldığından babamgil Candahar kəndinə köçüblər”.

Amid Səlimoğlunun özünün qeyd etdiyinə görə sonrakı həyat yolu, yəni uşaqlıq dövrünün haralardan keçməsi atasının iş yeri ilə bağlı olub. Hələ iki yaşında olanda, yəni 1995-ci ildə atasının işi ilə əlaqədar Qəbələ şəhərinə ailəsi ilə birgə köçüb.

Valideynlərin işi, həyat tərzi uşaqların dünyagörüşündə, mühitində xüsusi əhəmiyyət kəsb edir. Bəlkə də bir qədər irəliyə gedərək bunu da qeyd etmək yerinə düşər ki, Amidin kriminal aspektdə yazmasında elə atasının polis işçisi olması da müəyyən təsir amili olub. Onun atası Birinci Qarabağ müharibəsində ön cəbhədə döyüşən veteranlardandır. 2014-cü ildə vəfat edib. Onlar ailədə indi 4 nəfərdirlər. Anası və iki qardaşı ilə birgə özü.

Bu təfərrüatları yazmaq yəqin ki, bir çoxlarına lüzumsuz da görünə bilər. Amma Amid Səlimoğlunun ədəbiyyata gəlişinin ilk təqdiminin bizdən keçdiyini diqqətə çəkməli olsam, deməliyəm ki, bu qeydlərin rolu əvəzsizdir. Uzun illərdən sonra Amid Səlimoğlu kimi bir yazıçını tədqiq edən müəllif onun yaradıcılığının ilk çağlarını işıqlandıran ədəbi qeydləri axtarası olsa, yəqin ki, bu yazı ilə də qarşılaşmalı olacaq və onda bu yazının dəyərini qədərincə qiymətləndirə biləcək.

Amid Səlimoğlu orta məktəbin birinci sinfinə Qəbələ şəhərindəki Nicat Ağayev adına 4 saylı orta məktəbdə gedib. Ancaq az keçməmiş, 2007-ci ildə atasının işi ilə əlaqədar Oğuz şəhərinə köçüblər. Orta məktəbi də elə Oğuz şəhərində bitirib. 2011-ci ildə Bakı Dövlət Universitetinin Fəlsəfə fakültəsinə qəbul olunub. Və 2015-ci ildə həmin ixtisas üzrə məzun olub. Və elə həmin il də hərbi xidmətə çağırılıb. Bir il daxili qoşunların Bərdə rayonundakı N saylı hərbi hissəsində xidmət edib və xidmət müddətini bitirərək təxris olunub. Hazırda Xəzər Universitetində Maliyyə ixtisası üzrə magistr təhsili almaqdadır. Və çox təəssüf ki, hələ də subaydır.

Amid Səlimoğlu maraqlı və əhatəli dünyagörüşü sahibidir. Musiqi təhsili alıb, rəssamlığa da meyil göstərir. Və ən başlıcası, özünü ifadə imkanlarını bədii yaradıcılıqda tapmağa çalışır. Şeirlər yazır, kiçik hekayələr üzərində işləyir. Onun kənd həyatını yazmaq istəyi özünün qeyd etdiyi kimi “Dəli Kür” romanından başlamışdır. Və elə bu təəssüratla da o, “Qaranlıqdan işığa” adlı romanı üzərində işləmiş, 2016-cı ildə həmin əsəri bitirmişdir. Doğrudur, o, bu əsəri başlayana qədər və bitirənə qədər çoxlu yaradıcılıq məhsullarını araya-ərsəyə gətirib. Şeirlər, hekayələr, esselər, məqalələr, çap olunan və olunmayan yaradıcılıq məhsulları göstərir ki, Amid Səlimoğlu durğun yaradıcılıq yolu keçməyib və roman janrına da təsadüfi gəlməyib. “Qaranlıqdan işığa” romanında artıq bizim üçün nostalji olan hisslərlə keçmişə müraciət var. Sovet dövrü kəndinin həyatı, erməni-azərbaycalı münasibətləri və ən başlıcası, sağlam düşüncəli gənclərin saf duyğulu aləmini əks etdirən Yusif və Zəhra timsalında eşqin sarsılmazlığına münasibət abidəsi yaradıb.

Şübhəsiz, hər bir sənətkarın həyatında xüsusi təsiri olan hadisələr baş verir. Belə hadisələrin (və yaxud hadisənin) Amid Səlimoğlunun həyatında olub-olmadığını elə onun yaradıcılığı da göstərmək gücündədir. “Kimsəsiz” romanı bu qəbildən maraqlı faktdır. Bu əsəri yazmaq üçün müəllif təkcə Azərbaycan ərazisi ilə kifayətlənmir. Türkiyəyə səfər edir. Və düşüncə etibarı ilə həm də bütün şərqi gəzir.

Amid Səlimoğlu gərgin yaradıcılıq axtarışlarında olan gənc yazarlarımızdandır. Onun bir çox adlı roman, povest, hekayə janrında qələmə alınmış əsərləri var: “Bəyaz dəhliz”, “Vabin” romanları, “Sən axı kimsən?!”, “Sən axı kimsən, bumeranq?!”, “Malavarın hekayəsi”, “Sen benim yedi günümsün”, “44 gün” povestləri, “Qadın və o”, “Yazıçı” hekayələri... bəlkə hələ yenə sadalamaq olar. Şeirləri, esseləri, xırda qeydləri - bütün bunlar onun məhsuldar yaradıcılıq axtarışlarında olduğuna əyani sübutdur.

İkinci Qarabağ müharibəsi bütün sözqələm adamlarının həyatında - əlbəttə, yaradıcılıq həyatında xüsusi iz buraxıb. O cümlədən, Amid Səlimoğlunun da yaradıcılığında İkinci Qarabağ müharibəsinin əks-sədası özünəxas bir yer tutur. Bu da onun “44 gün” adlı povesti ilə işarələnir. Bu əsərdə şanlı ordumuzun düşmən üzərindəki çox möhtəşəm zəfərindən bəhs olunur.

Bəzən sənətkar haqqında danışanda onun yaşam yolu, yaradıcılıq xronikası ilə bağlı qeydləri oxucuların bir qismi acgözlüklə oxusa da, başqa qismi bunu artıq hesab edir. Ancaq biz gələcək nəsil üçün yaradıcı obrazın kimliyinə cavab axtarışında yaşam yolu qeydlərini yaradıcılıq xronikasını təqdim etməyimizi əsas məlumat mənbəyi hesab edirik.

* * *

Hər bir müəllifin yaradıcılıq yolu öz hisslərini, duyğularını ifadə imkanlarından başlanır. Mən yuxarıda qeyd etdim. Nadir istisnalar ola bilər. Lap müəllif birdən-birə geniş epik imkanlarını da üzə çıxara bilər. Amma hər halda Amid Səlimoğlunun yaradıcılığında “Kimsəsiz” (2020) romanına qədər müxtəlif janrları əhatə edən əsərləri də az deyil. O cümlədən, poetik qeydləri. Çox güman ki, Amid həyata obrazlı münasibətini sözlə ifadə imkanlarına görə elə birinci şeirə müraciət edib. Və poetik əsərlərini də ilk ədəbi qeydlər kimi yazıya gətirib. Açığı, mən deyə bilmərəm onun şeirləri bu günə qədər harada, necə çap olunub. Bunun bəlkə də heç məsələyə də dəxli yoxdur. Çünki hər hansı bir müəllifin yaradıcılıq qeydlərindəki gücünü əsərin özü təqdim edir və bu mənada Amid Səlimoğlunun bədii düşüncə imkanlarını poetik aspektdə öz yazılarından görmək daha düzgün olardı.

Hər bir şair üçün uğur birinci növbədə onun özünün mənəvi mühitində olan və özünə məlum olan görüntüləri yazmaqdan başlanır. Və elə buradaca bunu da qeyd etmək yerinə düşər ki, Amid Səlimoğlunun bizə təqdim olunan (əlimizdə olan) şeirlərinin içərisində ilkin poetik mətn onun həqiqi tərcümeyi-halıdır. Bir sözlə, şair, publisist və nəhayət, romançı Amid Səlimoğlu ilk qələm təcrübəsi kimi şeirində özünün yaş və təsəvvür mühitini qarşılaşdıra bilib. Yaşı ilə həyatının mahiyyətinə nəzər sala bilib. Beləliklə, “Mənim yaşım” adlanan həmin şeiri oxumaq kifayət qədər sözümüzə aydınlıq gətirər:

Mənim yaşım iyirmi doqquz.
Bir bağça var ürəyimdə,
Çiçəkləri ətir saçan,
Dost tanışa qarışdığım.

Mənim yaşım iyirmi doqquz.
Bir səhra var ürəyimdə,
Qapıları bağlı olan,
Tənha gəzib dolaşdığım.

Mənim yaşım iyirmi doqquz
Nədir doğru, nədir yalan?
Nədir kədər, nədir sevinc?
Sanki bilmək olub çətin.

Yaşayarıq otuzadək,
Öyrənərik gəlsə o an.
Hələ belə getsin dövran...

Müəllifin bu təəssüratı həqiqi həyat düşüncələridir. Axı, 30 yaşına çatanda bir çox gənclər qəribə hisslər keçirirlər. Onlara elə gəlir ki, həyat artıq əldən çıxır. İmkanları itirirlər. Ancaq onlar ən başlıcası, qarşılaşdıqları təzadlardan düzgün nəticə çıxartmalıdırlar. Və bu şeirin əsas uğuru ondan ibarətdir ki, müəllif ədəbi qəhrəmanın qarşılaşdığı sualları cəmiyyətə ünvanlayır.

Nəyin doğru, nəyin yalan, nəyin kədər, nəyin sevinc olduğuna diqqəti yönəltmək istəyir və özü də etiraf edir ki, özü yaşda olan bir çoxları üçün nəyin kədər, nəyin sevinc olduğunu ayırdı etmək çətindir. Ən başlıcası, 30 yaşacan olan gənclər üçün rənglər çox qarışıq görünür. Birinə aydın görünən mühit, digərinə bulanıq, buludlu görünür. Başqasına qırmızı görünən, digərinə ağ görünür. Ən başlıcası, eləri də olur ki, 30 yaşa çatanda bədbinlik duyğuları onun ruhuna hakim kəsilir. Ailə qura bilmir. Özünü təsdiq edə bilmir. Gücünü göstərə bilmir. Belələri üçün həyatın qara rəngdə görünməsi təbiidir. Bütün hallarda həyat 30 yaşda bitmir. Bu şeirin məğzi də məhz bu həqiqəti diqqətə çəkir. Müəllif demək istəyir ki, yaşayaq, görək hələ hansı rənglər gəlir.

Bütün insanlarda olduğu kimi Amid Səlimoğlunda da bir vüsal istəyi var. O, həmin vüsalı içindəki səmimiyyət duyğuları ilə gözləyir. Hansısa bir səhər onun üçün xoş duyğularla açılırsa, onun üçün demək, həyatın üzü gülür.

Şübhəsiz, həyatını gözləməyə sərf etmiş insanlar da az deyil. Amma gərək bütün gözləntilərin arxasında reallıqlar dayansın. O reallıqlar ki, hansısa maddi və mənəvi imkanları ilə sənə gücünü göstərmək üçün meydan verə biləcək. Başqa sözlə, kimliyini göstərmək imkanı verəcək. Əslinə qalsa, bütün insanlıq bu düstur üzərində fəaliyyət göstərir. Pis odur ki, nə düsturu, nə də onun nəticəsini qavramaq imkanında olmayanlar var. Belələri nihilistlərdir. Eləri də var ki, başı ağrıyanda, gözü ağrıyanda elə bilir ki, dünya qurtardı. Eləsi də var ki, belindən bir sancı tutanda düşünür ki, daha həyat qurtardı.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Bir başqası da var ki, yanında olan ağrı daşıyıcılarına zarafat sahibi kimi baxır. Amma həyat bu rənglərin içində mövcuddur. Ona görə də müəllif öz arzuladığının ona qarşı gəldiyini görəndə "xoş gəldin" deyir. Müəllifin növbəti şeiri elə "Xoş gəldin" adlanır.

Xoş gəldin, gözlərimin yollarında qaldığı,
Bilsən, həsrətindən neçə aya dözmüşəm.
İnan, bənövşə ətrini səndən duyalı,
Ən şirin yuxunu sənlə görmüşəm.

Körpə əllərinlə sən tut əlimi,
Mən sənə ata yox, mən sənə dostam.
Bezmədən dinlərəm, o göz yaşını,
Bir küncdə, səssizcə yanında olsam.

Bu ömrüm fədadır sənin yolunda,
Sən gözəl gözünü mənə açandan.
Bir görsəm, nigaran olmaram səndən,
Bəyazlar içində qanad açanda.

Bu şeirdə də müəllifin klassik poetik forma ənənələrini nə dərəcədə gözləyib-gözləmədiyi əsas deyil. Əsas odur ki, müəllif burada öz hisslərini ifadə edir. Varlığını səfərbər edən duyğuları sözə çəkə bilir. Ən başlıcası, əziyyət çəkmədən, söz axtarmadan, bir az da dəqiqləşdirsək, ənənəvi formanı təmin edəcək qafiyə gücünə güvənmədən hisslərini yazıya gətirir. Mən demirəm ki, bu şeirlər Yeseninsayağı ifadə tərzidir. Mən deyirəm ki, bu şeirləri yazan müəllif öz hisslərinin səmimiliyinə inanıb, doğruluğuna inanıb. Ona görə də nə vaxtsa öz kimliyini, yəni bu şeiri yazdığı dövrdəki kimliyini axtarmalı olsa, şübhəsiz, həmin şeirləri qayıdıb oxuyacaq. Və yəqin ki, onu anlamayan oxuculardan fərqli olaraq özünü həmin şeirlərində daha aydın, daha parlaq görəcək. Ən başlıcası, həmin yaşda görəcək. Həmin dövrdə görəcək.

Eşqin önündə səcdəyə durmayan kim var? Bir vaxt şair Ramiz Heydər mənə deyirdi ki, sən cümləni yazanda həmin cümlənin necə qurtaracağını qabaqcadan bilmirsən. O sənə vəhy ilə gəlir. Ona görə də sənin yazılarını elə oxucuların şeir kimi oxuyur. Mən indi deyə bilmərəm ki, Azərbaycanın böyük sənətkarının həmin sözləri nə dərəcədə dəqiqdir, doğrudur, amma onu deyirəm ki, özünün ruhunu yazan müəllif üçün başlanğıcda nəyi yazıb, sonluqda nəyi qurtaracağı o qədər də əvvəlcədən planlanmır. İfadə kimsəyə qəribə gələ bilər. Amma əsas odur ki, hər bir sözün yükü, mahiyyəti onu yazanın kimliyinə ünvan olmalıdır. Əgər şair öz eşqini, sevgisini yazırsa və öz sevgisində sabit-qədəmdirsə, yazdığı ilə, hisslərini ifadə edə bilirsə, onda onun özünün obrazı yazdığında kifayət qədər aydınlığı ilə görünə bilir. Amid Səlimoğlu da kifayət qədər zəngin yaradıcılığına rəğmən deyə bilərik ki, ədəbiyyata elə bir aşiq kimi gəlib. Aşiq olaraq da yazdığına özünün hisslərini gətirib, duyğularını gətirib. Əgər o öz hisslərini, duyğularını yazdığına gətirməsəydi, yəqin ki, onun yaradıcılığının sonrakı mərhələsi də məntiqi cəhətdən ardıcıllığını itirərdi. Məhz bu səbəbdən biz Amid Səlimoğlunun əlimizdə olan bədii nümunələrini təhlilə çəkərkən belə bir güvənclə danışırıq ki, o, ədəbiyyata özünü yazmaqla gəlib. Zənnimcə, ədəbiyyata özünü yazmaqla gəlmək sənətkarın, söz sahibinin ən böyük uğurudur.

Şübhəsiz, Amid də ilk sevgidən yaralanıb. İlk sevgidən məst olub. İçindən keçən duyğuları xüsusi bir zövqlə ruhunda yaşadıb. Və bir zaman görüb ki, bunları ruhunda yaşada bilmir. Bunları zahirə çıxarmalıdır. Həyata gətirməlidir. Sözə çevirməlidir. Elə bilirəm ki, oxucu müəllifin bir çox hallarda bəsit ifadə tərzini də səmimiyyətinə görə bağışlaya bilər. Çünki Amid Səlimoğlu sevgidə hiss olunacaq dərəcədə səmimidir. Və bu səmimiyyəti də öz şeirlərinə gətirməyə çalışır. Xalq arasında canlı dildə bir xahiş motivi var. Biz hansısa bir mətləbi qarşı tərəfdən icra etmək üçün ondan təmənnada bulunuruq: "Nə olar, gəl, razılaş". Bu mətləbi Amid Səlimoğlu özünün "Nə olar" şeirində poetik ifadə imkanları müstəvisinə gətirir.

Sən gülən də güllər açır üzündə,
Ağlama sən, qurban olum nə olar.
Günəş kimi düşüm sənin gözündən,
Ağlama sən, qurban olum nə olar.

Bir ömür bağında gülün solsa da,
Közərən xəyallar yarım qalsa da,
O kövrək qəlbinə kədər dolsa da,
Ağlama sən, qurban olum nə olar.

Qışdan yaza xəbər gedib çatınca,
İllər keçib aydan soraq alınca,
Pərvanətək şam da ona yanınca,
Ağlama sən, qurban olum nə olar.

Hafizəm, arsızam, yenə gülərəm,
Bir bilsən səninçün nələr edərəm,
Sən sev də, mən səni yenə sevərəm,
Bircə sən gül, qurban olum nə olar.

Sağlam, duyğulu sevgi hisslərinin



gənclərin yaradıcılığı üçün xarakterik olduğunu hər kəs yaxşı bilir. Ümumilikdə bu sevgi hissləri bir-birinə çox bənzəsə də, hər bir fərdin mənəvi dünyasında bunun əks-sədası müxtəlif cür olur. Gənc şairlər üçün sevgidən yazmaq təkcə yaradıcılıq tələbatı deyil. Həm də sevgi duyğularının tələbatıdır.

Sevgi insan üçün hərəkətverici qüvvədir. Hər bir sevən şəxs daxili-mənəvi mühitində ali duyğularla baş-başa qalır. Axı sevgi enerji qaynağı, hərəkətverici qüvvə olduğu kimi həm də hər bir gənc üçün dostdur, munisdir. Onun varlığının ətraf mühitdən gələn mənfi meyillərdən qoruyucusudur. Gənc müəllif Amid Səlimoğlu üçün də bu mənada sevgi istisna deyil. O da öz sevgisi ilə baş-başa qala bilir. Onunla duyğularını bölüşür. Ən başlıcası, bütün yazılarında sevgilisi ilə birlikdə olmaq istəyi qabarıq görünür. Hiss olunur ki, zaman keçsə də, vaxt ötsə də, o öz sevgisində israrlıdır. Onun üçün bu sevgidən dönüş yoxdur. Təqdim etdiyimiz şeirində də müəllif iki hissi qarşı-qarşıya gətirir. İnsan həyatı üçün təbii olan gülmək var, bir də ağlamaq var. Aşiq üçün ən üstün istək öz sevgilisinə gülüş arzulamaqdır. Əgər hansısa bir səbəbdən, xüsusilə burada söhbət ayrılıqdan gedə bilər, hər hansı bir ayrılıq zamanı sevgilisinin qəmə, kədərə batması, başqa sözlə ağlaması onun qəlbini göynədir. Bunun üçün də o, özündən qeyri kimsəni günahlandırmır. O bütün gücü ilə istəyir ki, sevgilisinin ovundursun. Onun həsrətini vüsalla əvəzləsin. Hətta gücü çatmayanda öz sevgilisinə adbaad müraciət edir, özünün hər cür töhmətə layiq olduğunu bildirir. Nəhayət, onun yolunda bütün cəfalara dözməyə hazır olduğunu etiraf edir.

Amid Səlimoğlunun yaradıcılığı üçün poeziya bəlkə də aparıcı xətt olmayacaq. Ancaq yaradıcılığının indiyə qədərki mərhələsində onun özünüifadə üçün poeziyaya müraciət etməsini də təbii qarşılamalıyıq. Demək olar ki, bu günə qədərki bütün şeirlərində sevgi motivlərini əsas mövzu kimi qələmə alır. Hətta sevgilisi haqqında istəklərini, duyğularını bildirəndə belə, təbiətə müraciət edir, təbiətlə bağlı duyğulanmalarını qələmə gətirir, ancaq yenə bu duyğulanmaları sevgi notları ilə süsləyir. Amid Səlimoğlunun "Səndən yana" adlı bir şeiri də var və bu şeirdə də biz təmiz qəlblə sevən gəncin duyğulanmalarını görürük.

Göy üzünü örtüb bulud,
Ay da sənə həsrət çəkir.
Bircə bilsən xəyalımdan,
Səndən yana nələr keçir.

Bir cüt qara göz içində,
Arzularım puça döndü.
Bir də çətin gülər üzüm,
Eşq atəşim suda söndü.

Axı nədir, məndə günah,
Düşüb ayrı məndən yarım.
Görən bir də, haçan gülər,
Qəlbim yenə səndən yarım.

Gələcəkmi, görən bahar,
Qaranquş tək qanad açıb.
Açacaqmı, solan çiçək,
Ulduz təki işıq saçıb.

Demək, hansısa bir səbəbdən sevgilisi ondan üz döndərib gedib, ancaq bu o demək deyil ki, sevgi də gedib. Sevgi onun varlığının hakimi olaraq onunla birgə həyata davam edir və bu şeirdə olduğu kimi o, sevgilisindən sonra yaşadığı hissləri qələmə alır. Bir aşiq olaraq çəkdiklərini, iztirablarını səmimiyyətlə ifadə edir.

Hər hansı bir müəllif üçün öz hisslərini, duyğularını, həyatını yazmaq əslində uğurun başlanğıcıdır, əsas şərtidir. Məhz bu şeiri oxucuya sevdirən, həssas oxucunu öz cazibəsinə çəkən hiss çox təbiidir. Yəni, müəllifin daşıdığı, yaşadığı hisslərdir.

Onu da qeyd edək ki, Amid sözün həqiqi mənasında, böyük zəhmətkeşliklə sözə sevgi ilə yazıb-yaratmaqda davam edir. Onun "44 gün" adlı əsəri, adından göründüyü kimi, məlum tarixi hadisənin bədii sözdə əks olunmasını işarələyir.

Bir növ müəllif içərisində olduğu, yaxşı qavradığı İkinci Qarabağ müharibəsinin yaddaşlarda yaşaması üçün sözün nə demək olduğunu yaxşı bilir. Ümumiyyətlə, insanların mənəvi mühitlərini qorumaq, onları gələcək mübarizələrə müsəlləh etmək sözün, sənətin borcudur. Və demək, həm də yazıçının borcudur. Bu mənada Amid Səlimoğlu üzərinə düşən yazıçılıq missiyasını sözün həqiqi mənasında fədakarlıqla davam etdirir.

Gənc yazıçının həyat yolu kifayət qədər rəngarəngdir. O, yazıçılara xas olan zəhmətkeşliklə seçdiyi mövzunu yazmağa cəhd göstərir, hətta bunun üçün yeri gəlsə, məkanını dəyişir. Məlumat bazasını daha da zənginləşdirir. Bu sıradan onun "Kimsəsiz" romanı xüsusilə təqdir olunmalıdır. "Kimsəsiz" romanı haqqında ayrıca təəssüratımızı yazacağımızdan, bu barədə qeydlərə rəvac verməyə lüzum görmürəm. Müəllifin 2017-ci ildə nəşr olunmuş "Qaranlıqdan işığa" adlı bir romanı var. Həmin romanın annotasiyasını oxumaq kifayət edər ki, müəllifin əsərlə bağlı məramını bütün aydınlığı ilə qavrayaq: "Bu kitabda gənc müəllif keçən əsrdə, Sovet dönəmində baş vermiş hadisələri təsvir etmişdir. Özü o dövrdə yaşamasa da, prototipləri olan personajları - yaşlıların, yaxınlarının söhbətlərindən o dövrün keşməkeşlərini təhlil etmiş, bədiiləşdirmiş, oxunaqlı bir əsər kimi oxuculara təqdim etmişdir. Mənfur qonşularımızın - ermənilərin Rus imperiyasının sərt qanunları dövründə belə öz çirkin niyyətlərini həyata keçirmək üçün hər kiçik imkandan istifadə etmələri də müəllif tərəfindən ürək yanğısı ilə qələmə alınmışdır". Bu qeydlərdən də göründüyü kimi, o, həyatı yazan müəllifdir. Onun üçün həyat bütün rəngləri ilə ona doğmadır. Əslinə qalsa, Amid bütün yaradıcılığı ilə cəmiyyətin mənən saflaşması uğrunda mübarizə aparan müəllifdir. Onu da deyim ki, Amid Səlimoğlunun bir-birinin arxasınca çap olunan çox dəyərli romanları, hekayələri, esseləri geniş oxucu əhatəsində kifayət qədər oxunur. Özünə geniş oxucu auditoriyası toplaya bilir. Amid Səlimoğlu ictimai həyatda da kifayət qədər fəaldır. Geniş oxucu auditoriyalarında çıxış edir. Onunla görüşlər təşkil olunur. Gənclər Amidin yaradıcılığını sözün həqiqi mənasında maraqla izləyirlər. Elə sosial şəbəkədə verilmiş maraqlı məlumatları izləmək də bəs edir ki, onun ədəbi-mənəvi mühitdəki yerini aydın qavraya biləsən. Mədəniyyət və İncəsənət Universitetinin tələbələri ilə görüşü mənim də yadımdadır. İndi artıq yaxından tanımış olduğum Amid Səlimoğlunu istedadlı bir yazar kimi Azərbaycan Yazıçılar Birliyinin üzvü olaraq görmək istərdim.

Bəli, qeyd etdiyim kimi Amid hələ gəncdir. Onun həyatının daha kamil zamanları qabaqdadır. Demək, yaradıcılığın da parlaq dövrü onun gələcəyindədir.

Hər bir qönçənin açılmağı var, təki həmin qönçə öz budağından vaxtsız üzülməsin. Həyatın hansısa bir yalançı çağırışı Amidi yolundan döndərməsə mən onun gələcəyini çox parlaq görürəm.

Qönçələr nə qədər cazibəli olsa da, onun əsas mahiyyəti açılmağı ilə bağlıdır. Bəli, güllər açılanda gözəl olur.

***Əli Rza XƏLƏFLİ***

***07.03.2023***